

# VƏTƏNDAŞ CƏMİYYƏTİ ÜÇÜN PRAKTİKİ VƏSAİT

## VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FƏALİYYƏTİ ÜÇÜN MƏKAN VƏ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNSAN HÜQUQLARI SİSTEMİ

UNITED NATIONS

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF HIGH COMMISSIONER

# Mündəricat


1. Bu vəsait haqqında məlumat ........ 2
2. Vətəndaş cəmiyyəti subyektləri və vətəndaş cəmiyyətinin fəaliyyəti üçün məkan . 4
   2.1. BMT-nin insan hüquqları sistemi – qısa icmal ........ 6
3. Azad və müstəqil vətəndaş cəmiyyətinin fəaliyyət şərtləri ........ 8
   3.1. Əlverişli siyasi və ictimai mühit ........ 9
   3.2. Əlverişli qanunvericilik mühiti ........ 10
   3.3. Sərbəst informasiya axını ........ 11
   3.4. Uzunmüddətli dəstək və resurslar ........ 11
   3.5. Dialoq və əməkdaşlıq üçün ümumi mühit ........ 12
4. Vətəndaş cəmiyyəti subyektlərinin üzləşdiyi çətinliklər ........ 17
   4.1. Vətəndaş cəmiyyətinin işini ləngidən qanunvericilik və normativ xarakterli tədbirlər 18
   4.2. Əsassız tədbirlər ........ 19
   4.3. Qanundankənar təqiblər, hədə-qorxular və repressiyalar ........ 20
5. Mən nə edə bilərəm? BMT–yə müraciət ........ 26
6. Sənədli resurslar........ 34
7. Bizimlə əlaqə saxlayın ........ 36


*Vətəndaş cəmiyyəti xadimlərinin qətiyyətliliyi və düzlüyü məndə və, ola bilsin ki sizdə də, təvazökarlıq, böyük borc hissi, həmçinin bərabər və ayrılmaz ləyaqət və hər bir insanın hüquqları naminə işləri davam etdirmək hissi yaradır.*

Zeyd Rəəd Əl–Hüseyn, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı
Oktyabr, 2014-cü il



# 1. Bu Təlimat haqqında

Sərbəst ifadə, birləşmə və dinc toplaşma azadlığı və dövlət işlərində iştirak etmək hüququ insanlara öz fikirlərini bölüşmək, yeni fikirlər formalaşdırmaq və öz hüquqlarını tələb etmək naminə başqaları ilə birləşmək imkanı verən insan hüquqlarıdır. Məhz bu ictimai azadlıqları həyata keçirməklə, biz iqtisadi və sosial inkişafımızla bağlı əsaslı qərarlar qəbul edirik. Məhz bu hüquqlar sayəsində biz vətəndaş fəaliyyətində iştirak edə və demokratik cəmiyyətlər qura bilərik. Bu azadlıq və hüquqların məhdudlaşdırılması bizim birgə tərəqqimizə xələl gətirir.

Hazırkı vəsait BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı (OHCHR) tərəfindən vətəndaş cəmiyyəti üçün hazırlanmış praktiki vəsaitlərdən altıncısı olmaqla, OHCHR–in cari tematik prioritetlərindən biri olan "demokratik fəaliyyət sahəsinin genişləndirilməsi" kontekstində nəzərdən keçirilməlidir.





Hazırkı vəsaitdə vətəndaş cəmiyyəti subyektlərinin fəaliyyəti ilə bağlı məsələlər işıqlandırılmışdır. Vəsait "vətəndaş cəmiyyəti" və "vətəndaş cəmiyyətinin fəaliyyət sahəsi" terminlərinin işçi təyinatının müəyyənləşdirilməsi ilə başlayır. Daha sonra, ifadə, birləşmək və dinc toplaşmaq azadlığı, eləcə də dövlət işlərində iştirak etmək hüququ üçün müvafiq beynəlxalq insan hüquqları standartlarının icmalı da daxil olmaqla, azad və müstəqil vətəndaş cəmiyyətinin fəaliyyəti üçün lazım olan şərt və şəraitlərin icmalı verilmişdir.

Vəsaitə bütün insan hüquqlarını (mülki, mədəni, iqtisadi, siyasi və sosial) bütün insanların mənafeyi naminə inkişaf etdirmək istiqamətində vətəndaş cəmiyyətinin öz işini həyata keçirməsi üçün mühitin inkişafı məqsədilə hökumətlər və vətəndaş cəmiyyəti subyektləri (VCS) arasındakı bir sıra əməkdaşlıq nümunələri daxil edilmişdir. Vətəndaş cəmiyyətinin işi üçün maneələr və məhdudiyyətlər, o cümlədən təqib, hədə-qorxu və təzyiq tədbirləri müəyyən edilmişdir. Vəsaitdə vətəndaş cəmiyyəti subyektlərinə vətəndaş cəmiyyətinin yerli səviyyədə fəaliyyəti üçün şəraiti təbliğ etmək və qorumaq məqsədilə BMT-nin insan hüquqları sistemindən faydalanmaq təklif olunur. Hazırkı vəsaitin sonunda, resurslar və əlaqə məlumatları təqdim olunur.

Hazırkı vəsaitin əsas məqsədi BMT-nin insan hüquqları sistemi ilə tanış olmayan VCS-lərə yardım etməkdir. Hazırkı vəsait tərtib olunma prosesinin lap əvvəlindən başlayaraq müxtəlif VCS-lərin töhfə və məsləhətləri ilə zənginləşdirilmişdir.

## 2. Vətəndaş cəmiyyəti subyektləri və vətəndaş cəmiyyəti üçün fəaliyyət məkanı

*"Öz xalqını eşitməyən liderlər onun səsini küçələrdən, meydanlardan, və ya tez–tez şahidi olduğumuz kimi, döyüş meydanlarından eşitməli olacaqlar. Lakin, daha yaxşı yol mövcuddur. Daha çox iştirak. Daha çox demokratiya. Daha çox qarışlıqlı fəaliyyət və açıqlıq. Bu, vətəndaş cəmiyyəti üçün maksimum fəaliyyət sahəsi deməkdir."*

BMT-nin Baş Katibi Pan Gi Munun Vətəndaş Cəmiyyətinə dəstəklə bağlı yüksək səviyyəli tədbirdəki nitqindən, 23 sentyabr, 2013-cü il

Hazırkı Vəsaitdə vətəndaş cəmiyyəti ictimai iştirakçılığın müxtəlif formaları ilə könüllü məşğul olan və BMT-nin məqsədlərinə (sülhün və təhlükəsizliyin dəstəklənməsi, insan hüquqlarının inkişafı, təbliği və hörmət) uyğun olan ümumi maraqlar əsasında fəaliyyət göstərən fərdlər və qruplar kimi müəyyən edilmişdir:

BMT-nin həyatımızın yaxşılaşdırılmasına yönəlmiş fəaliyyəti insan hüquqlarına hörmət prinsiplərinə əsaslanır. Yuxarıdakı şərhə uyğun olmaqla, vətəndaş cəmiyyəti subyektləri, birbaşa və ya dolayı yolla, öz işinin məzmun və xarakteri baxımından insan hüquqlarının təbliğinə və qorunmasına xidmət göstərir.

VCS-lər hüquqlarla bağlı məlumatlılığın artırılmasını təşviq edir, problemlərin müəyyənləşdirilməsində, strategiyaların hazırlanması, siyasət və qanunlara təsir göstərmək və hesabatlılığın təminatına nail olmaq istiqamətində icmalara köməklik göstərirlər. VCS-lər dövlət siyasəti ilə bağlı qərarların qəbulu proseslərinin tam həcmdə əsaslı olması üçün ictimaiyyətin fikirlərini toplayır və onları müvafiq instansiyalara göndərirlər. VCS-lər həm də eyni vaxtda bir neçə istiqamət üzrə təhlükəli və zəif mövqedə olan şəxslərə xidmətlər göstərirlər.

"Hər bir şəxsin, fərdi və başqaları ilə birlikdə, insan hüquqları və əsas azadlıqları milli və beynəlxalq səviyyədə təşviq etmək və müdafiə etməyə səy göstərmək hüququ vardır." (Maddə 1, çıxarış müəllifə məxsusdur).

Adətən Hüquq müdafiəçiləri haqqında Bəyannamə kimi istinad edilən, Universal insan hüquqları və əsas azadlıqların təşviqi və müdafiəsi ilə bağlı ayrı-ayrı şəxslərin, qrupların və ictimai orqanların hüquq və öhdəliklərinə dair Bəyannamə (BMT Baş Assambleyasının 53/144 saylı Qətnaməsi).





Məsələn, vətəndaş cəmiyyəti subyektlərinə daxildir: [1]

- İnternet fəalları da daxil olmaqla, hüquq müdafiəçiləri;
- İnsan hüquqları təşkilatları (QHT-lər, birliklər, zərər çəkmiş şəxslərə dəstək qrupları);
- Koalisiyalar və şəbəkələr (məsələn, qadın hüquqları, uşaq hüquqları və ya ətraf mühit məsələləri, torpaq hüquqları, LGBTİ və s. üzrə);
- Əlil şəxslər və onları təmsil edən təşkilatlar;
- İcma əsaslı qrupları (yerli xalqlar, azlıqlar, kənd icmaları);
- Dindar qruplar (kilsələr, dini qruplar);
- İttifaqlar (həmkarlar ittifaqları, eləcə də jurnalist birlikləri, hakimlərin, hüquqşünasların və vəkillərin assosiasiyaları, magistrat hakimlərin assosiasiyaları, tələbə birlikləri);
- İctimai hərəkatlar (sülh hərəkatları, tələbə hərəkatları, demokratiya hərəkatları);
- İnsan hüquqlarının təmin edilməsinə birbaşa töhfə verən mütəxəssislər (məsələn, humanitar təşkilatların əməkdaşları, vəkillər, hakimlər və tibb işçiləri);
- İnsan hüquqlarının pozulması qurbanlarının qohumları assosiasiyaları; və
- İnsan hüquqlarının təşviqinə yönəlmiş fəaliyyətlərlə məşğul olan ictimai qurumlar (məktəblər, universitetlər, elmi–tədqiqat strukturları).

Vətəndaş cəmiyyəti subyektləri problemləri həll etmək və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən məsələləri əhatə etmək istiqamətində fəal şəkildə səy göstərirlər:

- Yoxsulluq, korrupsiya və iqtisadi qeyri-bərabərliklə mübarizə
- Silahlı münaqişələr də daxil olmaqla, humanitar böhranlara qarşı reaksiya
- Qanunun aliliyinin və hesabatlılığın təşviqi
- İctimai azadlıqların təşviqi
- Dövlət büdcələrinin şəffaflığının təbliği
- Ətraf mühitin qorunması
- İnkişaf hüququnun həyata keçirilməsi

[1] BMT-nin insan hüquqları Proqramı üzrə iş: Vətəndaş cəmiyyəti üçün soraq kitabçası, OHCHR, 2008, s. vıı.

- Azlıqlara və digər risk qruplarına mənsub şəxslərin hüquq və imkanlarının genişləndirilməsi
- Ayrı-seçkiliyin hər hansı forması ilə mübarizə
- Cinayətlərin qarşısının alınması tədbirlərinə dəstək
- Korporativ sosial məsuliyyət və hesabatlılığın təşviq edilməsi
- İnsan alverinə qarşı mübarizə
- Qadınların hüquq və imkanlarının genişləndirilməsi
- Təhrikçi çıxışlara qarşı mübarizə
- Gənclərin hüquq və imkanlarının genişləndirilməsi
- Sosial ədalətin gücləndirilməsi və istehlakçı hüquqlarının müdafiəsi
- Sosial xidmətlərin göstərilməsi

VCS-lər bütün səviyyələrdə: yerli, milli, regional və beynəlxalq səviyyələrdə fəaliyyət göstərirlər.

Vətəndaş cəmiyyətinin fəaliyyət sahəsi dedikdə vətəndaş cəmiyyəti subyektlərinin cəmiyyətdə tutduğu yer, vətəndaş cəmiyyətinin fəaliyyət göstərdiyi mühit və çərçivə; və vətəndaş cəmiyyəti subyektləri, dövlət, özəl sektor və geniş ictimaiyyət arasında münasibətlər nəzərdə tutulur.

## 2.1. BMT-nin insan hüquqları sistemi – qısa xarakteristika

Sülh və təhlükəsizliyin təmin edilməsi və bütün dünyada inkişafa yönəlmiş fəaliyyətlərlə yanaşı, bütün insan hüquqlarının bütün insanlar üçün təşviqi və qorunması BMT-nin üç prinsipindən biridir. O, BMT Nizamnaməsi və beynəlxalq insan hüquqları standartları əsasında müəyyən edilir.

BMT insan hüquqlarını üç əsas üsulla təşviq və müdafiə etməyə çalışır:

1. İnsan Hüquqları üzrə BMT Ali Komissarlığı (OHCHR) insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərməklə BMT çərçivəsində aparıcı təşkilatdır. O, insan hüquqlarının müdafiəsinə yönəlmiş fəaliyyətlərinin təsirini artırmaq məqsədilə BMT-nin ixtisaslaşmış strukturları, fondları və proqramları (məsələn, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qaçqınlar üzrə Agentliyi, UNICEF, Beynəlxalq Əmək Təşkilatı, YUNESKO və s.) ilə sıx əməkdaşlıq edir.





2. İnsan hüquqları üzrə öhdəliklərin ölkələr tərəfindən icrasını müntəzəm və vaxtaşırı nəzərdən keçirmək məqsədilə, insan hüquqları haqqında beynəlxalq sazişlər (pakt və konvensiyalar) çərçivəsində müstəqil ekspertlərdən ibarət qruplar və ya müqavilə orqanları yaradılır.

3. İnsan hüquqları məsələlərini və mövcud vəziyyəti müzakirə etmək məqsədilə, BMT–yə üzvü olan dövlətlərdən ibarət hökumətlərarası orqanlar və ya birliklər yaradılır. Bu məqsədlə yaradılan əsas hökumətlərarası orqan, digər orqanlarla yanaşı, öz işini Xüsusi Prosedurlar adlanan müstəqil ekspertlər, eləcə də Universal Dövri İcmal adlanan mexanizm vasitəsilə dəstək üzərində quran insan hüquqları Şurasıdır.

Qeyd olunan üç element müstəqil, lakin bir–birini tamamlayan elementlərdir.

Bu mandatların və mexanizmlərin ətraflı izahatı ilə *“Birləşmiş Millətlər Təşkilatının insan hüquqları ilə bağlı Proqramı ilə necə işləməli?: Vətəndaş cəmiyyəti üçün sorğu kitabçasında”* (bax: bölmə 6. Resurslar) tanış olmaq mümkündür. Qeyd olunan sorğu kitabçası BMT-nin altı rəsmi dilində, eləcə də görmə problemi olan şəxslər üçün rəqəmsal informasiya çıxışı sistemi formatında (DAISY) kompakt–disklərdə fransız və ingilis dillərində mövcuddur.

BMT-nin insan hüquqları üzrə müdafiə mexanizmi işinin əsasını iş VCS-lərin iştirakı təşkil edir. Beynəlxalq səviyyədə, vətəndaş cəmiyyəti ekspert bilikləri, məlumatlılığın artırılmasına yönəlmiş tədbirlər, hüquq müdafiəsi məsələləri üzrə monitorinq və hesabatlılıq tədbirləri və insan hüquqlarının pozulması faktları formasında öz töhfəsini verir. VCS-lər insan hüquqları sahəsində yeni standartların, mexanizmlərin və institutların işlənib hazırlanmasına və insan hüquqları problemlərinin həllinə istiqamətlənən resursların və ictimai dəstəyin səfərbər edilməsinə dəstək verirlər.

BMT-nin İnsan Hüquqları Şurası vətəndaş cəmiyyəti ilə bağlı təşəbbüsləri

BMT-nin İnsan Hüquqları Şurası ifadə azadlığı, birləşmək və dinc toplaşmaq azadlığı, hədə-qorxu və repressiyalar, eləcə də hüquq müdafiəçiləri ilə bağlı olan və vətəndaş cəmiyyəti üçün xüsusi əhəmiyyət kəsb edən bir neçə qətnamə qəbul etmişdir. 2013 və 2014-cü illərdə, Şura "dinc, çiçəklənən və demokratik cəmiyyətlərin qurulması üçün zəruri olan bütün səviyyələrdə şəffaflıq və hesabatlılıq da daxil olmaqla dövlət idarəçiliyi prosesləri və müvafiq dövlət idarəçiliyinin təşviqi işlərinə vətəndaş cəmiyyətinin bütün səviyyələrdə fəal şəkildə cəlb edilməsinin həlledici əhəmiyyətini" qəbul etməklə, vətəndaş cəmiyyətinin fəaliyyət sahəsi haqqında 27/31 və 24/21 saylı qətnamələr qəbul etmişdir.

## 3. Azad və müstəqil vətəndaş cəmiyyətinin fəaliyyəti üçün şərait

*"Azad və müstəqil vətəndaş cəmiyyəti yerli, milli və qlobal səviyyədə sağlam və məsuliyyətli idarəetmənin əsasını təşkail edir."*

BMT Baş Katibi Pan Gi Mun, İnsan Hüquqları Şurasının iyirmi beşinci sessiyasının iştirakçılarına video müraciət, mart, 2014-cü il

Dövlətlərin beynəlxalq hüquqi öhdəlikləri onlardan insanların fərdi və ya başqaları ilə birlikdə vətəndaş fəaliyyəti ilə məşğul olmaq imkanlarını və bacarıqlarını fəal şəkildə dəstəkləyən iqtisadi, siyasi, sosial, hüquqi, mədəni şərait yaratmağı tələb edir.

Dövlət orqanları və vətəndaş cəmiyyəti strukturları arasında qarşılıqlı münasibətlərin əsasını formalaşdıran insan hüquqlarına riayət etmək prinsipləri aşağıdakılardır:





- **İştirak** – Vətəndaş cəmiyyətinin ictimai həyatdakı rolu hamı tərəfindən təsdiq edilir və vətəndaş cəmiyyəti subyektləri müstəqil fəaliyyət göstərmək və dövlət orqanlarının mövqelərindən fərqli mövqeləri müdafiə etmək hüququna malikdirlər.
- Ayrı-seçkiliyə yol verməmək – Bütün vətəndaş cəmiyyəti subyektləri ictimai həyatda iştirak etməyə dəvət olunur və hər hansı bir ayrı-seçkilik olmadan bu cür iştirak imkanları ilə təmin olunur.
- Ləyaqət – Dövlət orqanları və vətəndaş cəmiyyəti insanların həyatını yaxlaşdırmaqla bağlı ümumi məqsədə xidmət edir və bu zaman müxtəlif funksiyaları yerinə yetirirlər. Qarşılıqlı hörmət bu cür qarşılıqlı əlaqələr üçün həlledici əhəmiyyətə malikdir.
- Şəffaflıq və hesabatlılıq – İctimaiyyətin maraqlarına xidmət edən fəaliyyətlər dövlət qulluqçularından açıqlıq, məsuliyyət, dəqiqlik, şəffaflıq və hesabatlılıq tələb edir. Onlar, həmçinin VCS-lərdən bir–birləri və ictimaiyyət qarşısında şəffaflıq və cavabdehlik tələb edir.

Qabaqcıl təcrübənin əsasını təşkil edən əsas şərtlər:[2]

## 3.1. Əlverişli siyasi və ictimai mühit

Vətəndaş cəmiyyətinin qiymətləndirildiyi və təşviq edildiyi siyasi və ictimai mühit. Təcrübədə, təsisatlar və vəzifəli dövlət nümayəndələri vətəndaş cəmiyyəti subyektləri ilə müntəzəm qarşılıqlı fəaliyyət şəraitində onlarla hesablaşırlar.

[2] BMT-nin hüquq müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisinin hesabatı: Hüquq müdafiəçiləri üçün təhlükəsiz və əlverişli şəraitin elementləri, A/HRC/25/55.

**Tunis** – Vətəndaş cəmiyyəti insan hüquqları və demokratiya üçün prinsipial əhəmiyyət kəsb edən yeni qanun və siyasət prinsiplərinin işlənib hazırlanmasında iştirak etməklə yeni Tunisin qurulmasında ən mühüm rol oynamışdır. Vicdan məhbuslarının ümumi amnistiyası barədə fərman və dörd beynəlxalq sazişə (Bütün şəxslərin zorakı itkin düşməkdən mühafizəsinə dair Beynəlxalq Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta Fakültativ Protokol, İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzalara qarşı Konvensiyaya Fakültativ Protokol və Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsi) qoşulmaqla bağlı qanunlar kimi demokratik keçid dövrünün ilk təşəbbüsləri barədə məsələlərdə vətəndaş cəmiyyəti təşkilatları ilə məsləhətləşmələr aparılmışdır. Vətəndaş cəmiyyəti təşkilatları yeni seçki məcəlləsini elan etmiş və qeyri-hökumət təşkilatlarının dövlət tərəfindən, eləcə də xaricdən maliyyələşdirilməsinin mümkünlüyünə dair müddəanı da özündə əks etdirən birləşmək azadlığı haqqında yeni qanunu qəbul etmiş demokratik təsisatların yaradılmasında iştirak etmişlər. Həmin qanunun 2011-ci ilin sentyabr ayında qəbul edilməsindən etibarən, Tunisdə bir neçə min yeni assosiasiya yaradılmışdır. Tunisdə ilk demokratik və şəffaf seçki kimi tarixə düşmüş 2011-ci il seçkilərində vətəndaş cəmiyyətinin rolu prinsipial əhəmiyyət kəsb etmişdir. Həmin vaxt, ilk dəfə olaraq, 10.000–dən artıq vətəndaş cəmiyyəti fəalı beynəlxalq ictimaiyyətin dəstəyi ilə Müəssislər Məclisinə keçirilən seçkilərin monitorinqi məqsədilə səfərbər edilmişdi. Vətəndaş cəmiyyəti, xüsusilə qadın təşkilatları, qadın və kişilər arasında tam bərabərlik prinsipinin 2014-cü ilin yanvar ayında Müəssislər Məclisinin böyük səs çoxluğu ilə qəbul edilmiş yeni Konstitusiya mətninə daxil olunmasına dəstək nümayiş etdirmişlər.

İnsan Hüquqları Şurasının müzakirə qrupunun vətəndaş cəmiyyətinin fəaliyyət sahəsinin təşviqi və müdafiəsi məsələləri ilə bağlı müzakirəsinin nəticələrinə dair qısa məruzə, A/HRC/27/33.

## 3.2. Əlverişli hüquqi fəaliyyət sahəsi

Qanunvericilik aktları, inzibati qaydalar və təcrübə beynəlxalq standartlara uyğundur və vətəndaş cəmiyyətinin fəaliyyətinə zəmanət verir. Vətəndaş cəmiyyəti subyektlərinin ədalət məhkəməsinə, müstəqil və səmərəli insan hüquqları təsisatlarına və beynəlxalq insan hüquqları mexanizmlərinə çıxışı həmin fəaliyyət sahəsinin ayrılmaz hissəsini təşkil edir. Səmərəli qanunlar və siyasət prinsipləri həyati vacib məsələlər olsa da, düzgün həyata keçirilmədikdə səmərəsiz olacaqdır.

**Sloveniyada** birləşmək azadlığı hüququ qeydiyyatdan keçməmiş birliklər də daxil olmaqla, bütün assosiasiyaların müdafiəsini təmin edir; qeyd olunan hüquq qeydiyyatdan keçməmiş assosiasiyalarda iştirak edən şəxslər üçün bütün növ fəaliyyətləri həyata keçirmək, o cümlədən, dinc xarakterli toplantılar keçirmək və onlarda iştirak etmək hüququ nəzərdə tutur.

Dinc toplaşmaq və sərbəst birləşmək azadlığı hüququ ilə bağlı BMT-nin xüsusi məruzəçisinin hesabatı, A/HRC/20/27.

**Livan və Mərakeşdə** qanunvericilik vətəndaş cəmiyyəti təşkilatlarının yerli və xarici mənbələrdən maliyyələşməsi üçün dövlət orqanlarının təsdiqini tələb etmir.

Dinc toplaşmaq və sərbəst birləşmək azadlığı hüququ ilə bağlı BMT-nin xüsusi məruzəçisinin hesabatı, A/HRC/20/27.

## 3.3. Məlumatların sərbəst yayılması

VCS-lərə problemlər barədə məlumat və informasiyaları əldə etmək, öz narahatlıqlarını ifadə etmək, həll yollarının axtarılmasında konstruktiv şəkildə iştirak etmək və problemlərin həllinə töhfə vermək imkanı vermək məqsədilə, ideyalara, məlumatlara, təşəbbüslərə və qərarlara sərbəst çıxış imkanı.

## 3.4. Uzunmüddətli dəstək və resurslar

Marginal qrupların səsinin eşidilməsi üçün potensialın formalaşdırılması tədbirləri və bütün VCS-lər üçün resurslara, görüş yerlərinə və texnologiyalara çıxış imkanlarının təmin edilməsi.

**Xorvatiyada** Hökumət qrantların bölüşdürülməsi zamanı bütün hakimiyyət səviyyələrində dövlət orqanları tərəfindən riayət olunması icbari olan və əsas şəffaf qayda və prosedurların əks olunduğu assosiasiyaların proqram və layihələrinin həyata keçirilməsinə qrantların ayrılması üzrə qabaqcıl təcrübə, standartlar və meyarlarla bağlı Məcəlləni qəbul etmişdir (2007).

Qeyri-kommersiya hüququ üzrə Avropa Mərkəzi (ECNL). Vətəndaş cəmiyyəti təşkilatları üçün dövlət maliyyələşdirməsi: Avropa İttifaqı və Qərbi Balkan ölkələrində qabaqcıl təcrübələr, 2011-ci il

## 3.5. Dialoq və əməkdaşlıq naminə birgə fəaliyyət sahəsi

Qərar qəbuletmə proseslərində vətəndaş cəmiyyəti üçün yer təmin edir.

**Maldiv adalarında** 2014-cü ildə, regional QHT-lər və beynəlxalq təşkilatlarla birlikdə, İslam dini çərçivəsində gender bərabərliyinin həyata keçirilməsi işində məlumat mübadiləsi və regional təcrübələri müzakirə etmək məqsədilə, hökumət qadın hüquq müdafiəçiləri üçün beş günlük forumun keçirilməsinə dəstək vermişdi.

**Meksikada** Hüquq müdafiəçiləri və jurnalistlərin müdafiəsinə dair 2012-ci ildə qəbul edilmiş qanun hüquq müdafiəçiləri və jurnalistlərin üzləşdikləri təhdidləri aradan qaldırmaq üçün milli mexanizmin yaradılmasını nəzərdə tutur. Həmin qanun beynəlxalq QHT-lərin və təşkilatların, eləcə də OHCHR-in Meksika Nümayəndəliyinin dəstəyi ilə, vətəndaş cəmiyyəti subyektləri və Konqresin iştirakı ilə hazırlanmışdır.

**Nepalda** 2010-cu ildə, Məzhəb ayrı-seçkiliyi və toxunulmazlığı barədə Qanun vətəndaş cəmiyyətinin, dalitlərin işləri üzrə Milli Komissiyanın və OHCHR-in Nepal Nümayəndəliyinin iştirakı ilə işlənib hazırlanmışdır. Həmin qanun 2011-ci ilin mayında qəbul edilmişdir.

**Yeni Zelandiyada** 2011-ci ildə Əlillər haqqında Qanun Əlillərin Assosiasiyasının iştirakı ilə hazırlanmışdır.

Dinc toplaşmaq və sərbəst birləşmək azadlığı hüququ ilə bağlı BMT-nin xüsusi məruzəçisinin hesabatı, A/HRC/20/27.

Vanuatuda, 2013-ci ildə Hökumət Universal Periodik İcmal Komitəsi (UPR Committee) yaratmış və Komitənin sədr müavini vəzifəsinə Vanuatu Qeyri-Hökumət Təşkilatları Assosiasiyasının nümayəndəsini təyin etmişdi. Bundan başqa, vətəndaş cəmiyyəti insan hüquqları haqqında məruzələrin təqdim edilməsi üzrə ölkənin öhdəliklərini əlaqələndirmək səlahiyyətini həyata keçirən İnsan Hüquqları üzrə Milli Komitədə də təmsil olunur. 2013-cü ildə, Əlillərin Hüquqları üzrə Komitənin hesabatının hazırlanmasında əlil şəxslərlə işləyən təşkilatlarla geniş məsləhətləşmələr aparılmışdı.



## Vətəndaş cəmiyyətinin fəaliyyəti ilə əlaqəsi olan beynəlxalq hüquqi standartlar

Vətəndaş cəmiyyətinin fəaliyyəti üçün təhlükəsiz və əlverişli şərait insan hüquqları sahəsində beynəlxalq standartlara əsaslanan etibarlı milli hüquqi baza səviyyəsində dəstəklənməlidir.

İfadə azadlığı, birləşmək, dinc toplaşmaq və dövlət işlərində iştirak etmək hüququ insanlara müsbət dəyişikliklər naminə səfərbərlik imkanı verən hüquqlardır. Hər bir şəxs, fərdi və ya başqaları ilə birlikdə, bu hüquqlardan yararlanmalıdır. Onlar vətəndaş fəaliyyətinin əsasını təşkil edirlər.

İnsan hüquqları üzrə əsas beynəlxalq sənədlərin əksəriyyəti ictimai azadlıqların müdafiəsi ilə birbaşa əlaqəsi olan və ayrı-seçkiliyə yol verməməklə bağlı bütün prinsiplərə istinad olunan müddəaları özündə birləşdirir:

- İnsan hüquqları haqqında ümumi Bəyannamə (19, 20, 21-ci maddələr);
- Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt fikir və fikri sərbəst şəkildə ifadə etmək, dinc məqsədlə toplaşmaq və birləşmək, və ictimai həyatda iştirak azadlığı hüquqlarını təmin edir (19, 21, 22, 25-ci maddələr);
- İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt həmkarlar ittifaqları yaratmaq və onlarda iştirak etmək, həmçinin mədəni həyatda iştirak etmək hüququnu təmin edir (8, 15-ci maddələr);
- Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya qadınların hüququ, siyasi, iqtisadi və mədəni həyatda iştirak etmək hüququnu təmin edir (maddə 3);
- İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya ifadə azadlığı, dinc toplaşmaq və birləşmək və ictimai işlərdə iştirak etmək hüququ ilə bağlı ayrı-seçkiliyi qadağan edir (maddə 5);
- Uşaq hüquqları haqqında Konvensiya ifadə, birləşmək və dinc toplaşmaq azadlığı hüququnu təmin edir (13, 15-ci maddələr);
- Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya fikir və sərbəst ifadə azadlığı, informasiyaya çıxış əldə etmək hüququ, siyasi və ictimai həyatda, eləcə də mədəni həyatda iştirak hüququnu təmin edir (21, 29, 30-cu maddələr);

- Bütün şəxslərin zorakı itməkdən qorunması haqqında Beynəlxalq Konvensiya zorakı itmə şəraitinin və itmiş şəxslərin taleyinin müəyyənləşdirilməsinə yardım göstərməklə məşğul olan təşkilatlar və assosiasiyalar yaratmaq və bu cür işləri həyata keçirən təşkilatların və assosiasiyaların işində sərbəst şəkildə iştirak etmək hüququnu nəzərdə tutur (maddə 24); və
- Bütün işçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsinə dair Beynəlxalq Konvensiya birləşmək azadlığı hüququnu təmin edir (maddə 26).

İfadə, birləşmək və dinc toplaşmaq azadlığı və dövlət işlərinin həyata keçirilməsində iştirak etmək hüququ bir çox digər, mülki, mədəni, iqtisadi, siyasi və sosial hüquqlarının həyata keçirilməsi üçün vasitə qismində çıxış edir. Onlar qadın, kişi və uşaqların cəmiyyətdə müsbətyönümlü dəyişikliklərə hədəflənən fəaliyyətlərlə məşğul olmaq imkanlarını genişləndirir.

**İfadə azadlığı.** İfadə azadlığına hər cür informasiya və ideyaları axtarmaq, almaq və yaymaq hüququ daxildir. İfadə azadlığına siyasi və dini çıxışlar, dövlət işləri, insan hüquqları, habelə mədəni və bədii ifadə ilə bağlı informasiya və ideyalar daxildir. Bu anlayışın istifadə dairəsinə həm də bəzi məhdudiyyətlər (məsələn, bax: ayrı-seçkilik, düşmənçilik və ya zorakılığa təhrik edən milli, irqi və ya dini nifrət təbliğatının qadağan olunmasına dair Rabat fəaliyyət planı, 5 oktyabr 2012-ci il) istisna edilməklə dərin təhqir sayıla biləcək ifadə vasitələri də daxildir. Bütün ifadə formaları və onların yayılma vasitələri qorunur: danışıq, yazılı və işarə dili, həmçinin təsvirlər və incəsənət predmetləri kimi qeyri-şifahi kommunikasiya vasitələri. Fikri kitab, qəzet, kitabça, afişalar, karikaturalar, bannerlər, geyim formaları və hüquqi materiallar vasitəsilə ifadə etmək mümkündür. Onlara audiovizual, eləcə də elektron və internet-texnologiyalarına əsaslanan ifadə vasitələrinin bütün formaları daxildir.

**Birləşmək azadlığı.** Birləşmək dedikdə, ümumi maraqları kollektiv şəkildə reallaşdırmaq, ifadə etmək, təbliğ etmək, təmin etmək və müdafiə etmək məqsədilə şəxslərdən ibarət istənilən birlik və ya istənilən təşkilat nəzərdə tutulur. Birləşmək azadlığı nümunələrinə vətəndaş cəmiyyəti təşkilatlarına, klublara, kooperativlərə, QHT-lərə, dini birliklərə, siyasi partiyalara, həmkarlar ittifaqlarına, "onlayn" rejimdə fəaliyyət göstərən fondlara və assosiasiyalara daxil olmaq və onların işində iştirak etmək və ya iştirak etməməklə bağlı qərar qəbul etmək daxildir. "Resursları axtarmaq, əldə etmək və istifadə etmək, ölçüsündən asılı olmayaraq istənilən birliyin mövcud olması və səmərəli fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Birləşmək azadlığı hüququna insan, material və maliyyə resurslarını yerli, xarici və beynəlxalq mənbələrdən axtarmaq, əldə etmək və istifadə etmək hüququ daxildir." (A/HRC/23/39, bənd 8.).

**Dinc toplaşmaq azadlığı.** Dinc toplaşmaq dedikdə, hər hansı konkret məqsəd üçün xüsusi və ya ictimai məkanda müvəqqəti, qeyri-zorakı toplaşmaq nəzərdə tutulur. Bu terminlə nümayişlər, tətillər, yürüşlər, mitinqlər və ya oturaq aksiyalar ifadə edilir.

**Dövlət işlərində iştirak etmək hüququ.** Dövlət işlərinin icrası, siyasi səlahiyyətlərin, xüsusilə də qanunvericilik, icra və inzibati səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı olmaqla geniş anlayışdır. Bu anlayış dövlət idarəçiliyi işinin bütün aspektlərini, eləcə də beynəlxalq, milli, regional və yerli səviyyələrdə siyasət prinsiplərinin hazırlanması və həyata keçirilməsini əhatə edir. İştirak birbaşa və ya azad şəkildə seçilmiş nümayəndələr vasitəsilə konstitusiyanın təsdiq edilməsi və dəyişdirilməsi, qanunvericilik və siyasət prinsiplərinin işlənib hazırlanması, referendum vasitəsilə dövlət məsələləri barədə qərarların verilməsi, yerli məsələlər üzrə qərar qəbul etmək səlahiyyətləri olan xalq toplantılarında gerçəkləşdirilə bilər. Siyasi və dövlət işləri ilə məşğul olan təşkilatlar və assosiasiyalar yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla, birləşmək azadlığı hüququ dövlət işlərində iştirak etmək hüququ baxımından mühüm əhəmiyyətə malikdir.

**Ayrı-seçkiliyə yol verməmək.** Yuxarıda qeyd olunmuş hüquqların hamısı hər hansı irq, rəng, cins, dil, din, siyasi və ya digər baxışlar, seksual oriyentasiya, milli və ya sosial mənşə, əmlak vəziyyəti, doğum və ya digər şərtlərlə bağlı hər hansı bir ayrı-seçkilik olmadan bütün şəxslər üçün təmin edilir. Bu hüquqlar qadınlara, uşaqlara, yerli xalqlara, əlillərə, azlıqlara, marginalizasiya və ya tükənmək riski zonasına aid olan digər qruplara, o cümlədən, seksual oriyentasiya və cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə məruz qalmış qurbanlara, qeyri-vətəndaşlara, o cümlədən, əcnəbilərə, qaçqın və köçkünlərə, eləcə də qeydiyyatdan keçməmiş qruplar da daxil olmaqla birliklərə şamil edilir.

Bu beynəlxalq standartlar dövlət hakimiyyətinin bütün qollarına (icra qanunvericilik və məhkəmə); hər hansı səviyyədə (milli, regional və yerli) digər dövlət və ya hökumət orqanlarına şamil olunur. Dövlət həmçinin insanları bu cür azadlıqları azalda biləcək xüsusi şəxslərin və ya təşkilatların hərəkətlərindən qorumalıdır. Dövlətlər bu hüquqların həyata

keçirilməsini təşviq etmək və qorumaq üçün də məsuliyyət daşıyır.

İfadə, birləşmək və dinc toplaşmaq azadlıqlarından istifadə ilə bağlı xüsusi vəzifə və məsuliyyətlər vardır və onların istifadəsinə müəyyən məhdudiyyətlər tətbiq oluna bilər. Hər hansı məhdudiyyətlər qanunla müəyyən edilməli və yalnız digər şəxslərin hüquqlarına və nüfuzuna hörmət; və ya dövlət təhlükəsizliyi və ya ictimai asayişin mühafizəsi, ictimai asayiş, əhalinin sağlamlığı və ya mənəviyyatı baxımından zəruri olmalıdır. Bu cür əsaslar heç bir halda çoxpartiyalı demokratiyanın, demokratik prinsiplərin və insan hüquqlarının təbliğinin qarşısının alınması məqsədilə tətbiq edilə bilməz.

İnsan Hüquqları Komitəsi, Ümumi Şərh № 34, maddə 19: Fikir və ifadə azadlığı, CCPR/C/GC/34; və Ümumi Şərh № 25, maddə 25: Dövlət işlərinin həyata keçirilməsində iştirak hüququ, CCPR/C/21/Rev.1/Add.7. Dinc toplaşmaq və birləşmək azadlığı hüquqları üzrə BMT-nin xüsusi məruzəçisinin məruzələri, A/HRC/20/27; və A/HRC/23/39.

*"Hökumətlər də daxil olmaqla, bizlərdən heç kim bütün faktlara, ən yaxşı ideyalara malik ola və ya həll etməyə çalışdığımız problemlərin kökündə duran bütün səbəbləri bilə bilməz. Yalnız kollektiv təcrübə bizə xeyir gətirə bilər. Məhz buna görə də, hər hansı qərar qəbul etməzdən əvvəl, bütün maraqlı tərəfləri, xüsusilə marginal qrupları dinləmək çox vacibdir. Misal üçün, İnsan Hüquqları Komitəsi hökumətlər, BMT və vətəndaş cəmiyyəti də daxil olmaqla, ən müxtəlif mənbələrdən məlumat toplayır. Bu, Hökumətlərin öz qanun və təcrübələrini insan hüquqları ilə bağlı ratifikasiya etmiş olduqları sazişlər çərçivəsində götürdükləri öhdəliklərlə daha çox uyğunlaşdırmaq istiqamətində görməli olduqları əməli tədbirlərlə əlaqədar əsaslı yekun qeydlər və tövsiyələr hazırlamaqda bizə kömək edir."*

Professor Nigel Rodley,
BMT-nin İnsan hüquqları Komitəsinin Sədri, oktyabr 2014-cü il



## 4. Vətəndaş cəmiyyəti subyektlərinin üzləşdikləri problemlər

Hökuməti tənqid etdiklərinə və ya onun baxışlarına, siyasətinə və fəaliyyətlərinə etiraz etdiklərinə görə vətəndaş cəmiyyəti subyektləri yerli, milli, regional və ya qlobal səviyyələrdə öz qanuni fəaliyyətlərini həyata keçirərkən məhdudlaşdırıcı maneələrlə, məhdudiyyətlərlə, fəaliyyətlərinin dayandırılması və fəaliyyət nəticələrinin ləğv edilməsi ilə müşayiət olunan maneələrlə qarşılaşa bilərlər.

Bu cür maneələrə VCS-lərə qarşı azadlıq və müstəqilliyin məhdudlaşdırılması, təqib, təhdid və repressiyalar (məsələn, cəza və ya intiqam) aid edilə bilər.

**Vətəndaş cəmiyyətinin fəaliyyətinin qarşısını almaq, məhdudlaşdırmaq, dayandırmaq və ya fəaliyyət nəticələrini ləğv etmək üsulları**



## 4.1. Vətəndaş cəmiyyətinin işinə mane olan qanunvericilik və normativ xarakterli tədbirlər

Qanunlar və normativ aktlar, məsələn, aşağıdakı yollarla vətəndaş cəmiyyətinin azadlıq və müstəqilliyini məhdudlaşdıra bilər:

- Müsbət fayda (məsələn, vergi güzəştləri) olmadan qeydiyyat tələbləri;
- Mümkün fəaliyyət növlərinin məhdudlaşdırılması;
- Qeydiyyatsız fəaliyyətə görə cinayət sanksiyalarının tətbiqi;
- Konkret birliklərin, o cümlədən beynəlxalq QHT-lərin və ya xaricdən maliyyələşən birliklərin və ya insan hüquqları üzrə fəaliyyət göstərən qrupların qeydiyyatına məhdudiyyətlərin tətbiqi;
- Hansı şəxslərin və ya təşkilatların bu və ya digər fəaliyyətlərə məşğul ola biləcəyi ilə bağlı meyarların və ya bu cür fəaliyyətlərə məhdudiyyətlərin tətbiqi;
- Maliyyələşdirmə mənbələri (məsələn, xarici mənbələr) ilə bağlı məhdudiyyətlərin tətbiqi; və
- Ayrı-seçkilik müddəalarının əksini tapdığı və ya bəzi qruplara qeyri-mütənasib mənfi təsir göstərən dinc toplaşmaq, birləşmək və ifadə azadlığını tənzimləyən qanunların qəbulu.

Bundan başqa, ağır inzibati prosedurlar və diskresion tədbirlər də VCS-lərin fəaliyyətlərinin həyata keçirilməsinə mane ola və ya onları ləngidə bilər.

Məlumat əldə etmək azadlığı hüququ məhdudlaşdırıldıqda, VCS-lərin siyasət prinsiplərinin formalaşdırılması proseslərinə daha az fəal müdaxilə imkanı olur. Qərarların qəbulu proseslərində həddindən artıq məhdud və ya sərt iştirak formaları (məsələn, VCS-lərə verilən “müşahidəçi statusu” və ya məhdud səsvermə hüququ) da iştirakla bağlı maneələrdəndir. Birləşmək sərbəstliyi standartları milli və yerli səviyyədə tətbiq olunduğu qədər beynəlxalq səviyyədə də tətbiq edilir.[3]

[3] Dinc toplaşmaq azadlığı və birləşmək hüququ üzrə BMT-nin xüsusi məruzəçinin çoxtərəfli təsisatlar kontekstində hesabatı, A/69/365.





## 4.2. Əsassız tədbirlər

Vətəndaş cəmiyyəti hökuməti tənqid etdikdə və ya onun baxışlarına, siyasətinə və fəaliyyətinə etiraz etdikdə, qanunların qeyri-müəyyən müddəaları düzgünlük və qanunilik adı altında (məsələn, çirkli pulların yuyulması, terrorla mübarizə, milli təhlükəsizlik, ictimai əxlaqın mühafizəsi, diffamasiyaya qarşı mübarizə, milli suverenliyin qorunması) tətbiq edilə və aşağıdakı nəticələrə gətirib çıxara bilər:

- Rəhbərliyin və daxili idarəetmənin əsassız olaraq yoxlanılması;
- Qeydiyyatı ləğv etmək təhdidləri və ya faktiki ləğv etmək;
- Ofislərin məcburi şəkildə bağlanması;
- Axtarış və əmlakın müsadirə edilməsi;
- Hədsiz cərimələr;
- Saxta ittihamlar əsasında təqiblər;
- Əsassız həbslər və həbs tədbirləri;
- Səfərlərin qadağan edilməsi;
- Vətəndaşlıqdan məhrum etmə; və
- Mitinq və yığıncaqların əsassız şəkildə məhdudlaşdırılması və ya ləğvi.

BMT-nin İnsan Hüquqları Şurasının vətəndaş cəmiyyətinin fəaliyyəti üçün təhlükəsiz və əlverişli şəraitin yaradılması və qorunmasına dair Qətnaməsində de-yuri və de-fakto olaraq qeyd olunur: " bir sıra hallarda... milli hüquqi və inzibati müddəalar... beynəlxalq hüquqa zidd şəkildə vətəndaş cəmiyyətinin işinə mane olmaq və onun təhlükəsizliyinə təhdid məqsədi daşımışdır."

## 4.3. Qanunun təsir dairəsindən kənar təqib, hədə-qorxu və repressiyalar

Vətəndaş cəmiyyətinin fəaliyyət sahəsini məhdudlaşdıra biləcək qanunla müəyyən olunan məhdudiyyətlər və əsassız qəbul edilən qanunlarla yanaşı, VCS-lər və ya onların ailə üzvlərinə qarşı təhdidlər və ya digər psixoloji təzyiq formaları və ya fiziki hücumlar onların sərbəst fəaliyyətinə mane ola bilər.

Bu cür hərəkətlərlə bağlı nümunələrə daxildir:

- Telefonla edilən hədə-qorxular;
- Təqib;
- Fiziki hücum və ya cinsi təcavüz;
- Əmlakın məhv edilməsi;
- İş və ya gəlir mənbəyindən məhrum etmə;
- Vətəndaş cəmiyyəti subyektlərinə "dövlət düşmənləri", "xain" və ya "xarici dövlətin maraqlarına xidmət edən şəxslər" damğası vurmaqla böhtan kampaniyaları;
- İtkin düşmə halları;
- İşgəncələr; və
- Qətllər.





*"Vətəndaş cəmiyyətinə daxil olan insanlar və qruplar tez–tez başqalarının həyatını yaxşılaşdırmaq üçün öz həyatlarını riskə atırlar. Onlar əbədi susdurula biləcəklərini dərk etdikdə belə, həqiqəti söyləyirlər. Onlar digərlərinin əhəmiyyət vermədikləri və ya hətta mövcudluğundan belə xəbərdar olmadıqları problemləri işıqlandırırlar. Onlar bizim hüquqlarımızı müdafiə edirlər. Onlar öz hüquqlarına layiqdirlər."*

BMT-nin Baş katibi Pan Gi Munun Vətəndaş Cəmiyyətinə dəstəklə bağlı yüksək səviyyəli tədbirdəki çıxışından
23 sentyabr 2013-cü il

*"Təqib, hədə-qorxu və repressiya hərəkətləri hüquq müdafiəçiləri və ya şahidlərə təzyiq göstərməklə onlara öz problemlərini səsləndirməyə və BMT və ya digər beynəlxalq təşkilatlarla işləməyə mane olur. Eyni zamanda, bu əməllər ictimaiyyəti qorxutmaq və istismaredici şərait yaratmaq, demokratik cəmiyyət üçün vacib olan ifadə, birləşmək və dinc toplaşmaq azadlıqlarını boğmağa xidmət edir."*

Səfir Laura Düpüi Lassere, Uruqvayın BMT-nin Cenevrədəki daimi nümayəndəsi və İnsan Hüquqları Şurasının sədri (2011–2012).

## Qadın hüquq müdafiəçiləri

Qadın hüquq müdafiəçiləri kişi həmkarlarının üzləşdikləri risklərlə üzləşirlər. Lakin, onlar qadın olduqlarından, onlar həm də məqsədyönlü şəkildə cinsi zəmində hə də və zorakılıqlara məruz qalırlar. Tez–tez, qadın hüquq müdafiəçilərinin işi ailə haqqında ənənəvi təsəvvürlərə və cəmiyyətdəki cinsi rollara təhdid kimi qiymətləndirilir və bu, geniş kütlələr və hakimiyyət orqanları tərəfindən qəbul edilmir. Onların işi icma liderləri, dini qruplar, ailələr və ictimaiyyət tərəfindən din, şərəf və mədəniyyətə təhdid hesab edildiyindən, qadın hüquq müdafiəçilərinə damğa vurulur və onlar sürgün edilirlər.

Bundan başqa, onların fəaliyyətinin özü və ya nail olmaq üçün çalışdıqları hədəflər (məsələn, qadın hüquqlarının və ya hər hansı gender hüquqlarının həyata keçirilməsi) də onları hücumların hədəfinə çevirir. Qadın hüquq müdafiəçilərini təcrid etmək və onların işləmək həvəsini öldürmək məqsədilə, onların ailələri də təhdid və zorakılıqların hədəfinə çevrilirlər. Qadın hüquq müdafiəçiləri, kişi həmkarları ilə müqayisədə, müxtəlif zorakılıq formalarına və digər hüquqpozmalara, xurafatlara, təcrid olunmalara və məhrumiyyətlərə daha çox məruz qalırlar. Qadınların həm yerli, həm də beynəlxalq səviyyədə müdafiə mexanizmlərini və onların problemləri ilə bağlı digər cavab tədbirlərini gücləndirmək məqsədilə, bu cür problemlərin

mövcudluğu etiraf edilməlidir. Dövlət və ya qeyri-dövlət qurumları tərəfindən törədilməsindən asılı olmayaraq, qadın insan hüquqları müdafiəçilərinə qarşı hədə-qorxu, təhdid, təcavüz və digər qəddar davranış halları vaxtında və hərtərəfli şəkildə araşdırılmalıdır.

2013-cü ildə, BMT Baş Assambleyası öz tarixində ilk dəfə olaraq qadın hüquq müdafiəçiləri haqqında qətnamə (68/181 saylı Qətnamə) qəbul etmişdir. Həmin qətnamədə Asssambleya bütün yaşlardan olan qadın hüquq müdafiəçilərinin məruz qaldıqları sistemli və strukturlu ayrı-seçkilik və zorakılıq halları ilə bağlı dərin narahatlıq ifadə edir və bütün dövlətləri onların müdafiəsini təmin etmək üçün bütün zəruri tədbirləri görməyə və gender problemlərini nəzərə almaqla insan hüquqlarının müdafiəsi üçün təhlükəsiz və əlverişli şərait yaratmağa çağırır.

Kot d'İvuarda, 2014-ci ildə qəbul olunmuş Hüquq müdafiəçilərinin təşviqi və müdafiəsinə dair Qanunda ifadə azadlığı hüququ, birlik və qeyri-hökumət təşkilatları yaratmaq hüququ, resurslara çıxış əldə etmək hüququ, beynəlxalq qurumlara məlumat təqdim etmək hüququ və repressiyalardan qorunmaq hüququ da daxil olmaqla, Hüquq Müdafiəçiləri haqqında Bəyannamədə təsbit edilmiş bir çox hüquqlar barədə müddəalar öz əksini tapmışdır. Bu qanun hüquq müdafiəçilərini, onların ailələrini və evlərini hücumlardan qorumaq, həmçinin bu cür hücum hallarını araşdırmaq və günahkarları cəzalandırmaqla bağlı öhdəlik nəzərdə tutur. Qanunda qadın hüquq müdafiəçilərinin üzləşdikləri xüsusi təhdidlər və onlar üçün müdafiə təminatının zəruriliyi qeyd olunur. Kot d'İvuar hüquq müdafiəçilərinin Koalisiyası və Qərbi Afrika hüquq müdafiəçiləri Şəbəkəsi də daxil olmaqla, vətəndaş cəmiyyəti təşkilatları bu qanunun qəbul edilməsini rəğbətlə qarşılamışlar.





## BMT ilə əməkdaşlığa görə fiziki şəxslərə və qruplara qarşı hədə-qorxu və repressiyalar

*"Vətəndaş cəmiyyəti təkcə insan hüquqları sahəsində deyil, həm də sülh və təhlükəsizlik, eləcə də inkişafla bağlı bizim gündəliyimizin bütün bəndləri üzrə BMT-nin fəaliyyətinin irəli aparılmasında əsas rol oynayır. Vətəndaş cəmiyyətinin rolu heç vaxt bugünkü qədər vacib və zəruri olmamışdır. BMT ilə əməkdaşlıq şəxslərə qarşı repressiyalar və hədə-qorxu qəbuledilməzdir. Təkcə ona görə yox ki, onlar Nizamnamə və İnsan Hüquqları Bəyannaməsində nəzərdə tutulmuş işimizi yerinə yetirməkdə bizə kömək edirlər, həm də ona görə ki, bu cür hallar həm də digər insanları bizimlə işləmək arzusundan daşındırır. Biz demokratiyanın səsini gücləndirmək üçün bütün səviyyələrdə tədbirlər görməliyik."*

BMT-nin Baş katibi Pan Gi Munun vətəndaş cəmiyyətinin dəstəklənməsi üzrə yüksək səviyyəli tədbirdə çıxışından
23 sentyabr 2013-cü il

*"BMT bizimlə əməkdaşlıq edən şəxslər olmadan insan hüquqlarına yönəlmiş əvəzsiz işlər görə bilməzdi. Onlara hədə-qorxu gəldikdə və repressiyaların hədəfinə çevirdikdə, onlar qurbana çevrilirlər, lakin bununla hamımızın təhlükəsizliyinə zərbə dəyir. Onlara bizimlə əməkdaşlıq etmək qadağan olunduğu zaman, insan hüquqları sahəsində işimiz təhlükə altında qalır."*

BMT-nin Baş Katibi Pan Gi Mun, Repressiyalarla bağlı yüksək səviyyəli qrup müzakirələrində çıxışından, Nyu-York, 2011-ci il

# VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FƏALİYYƏTİ ÜÇÜN MƏKAN VƏ BMT-NİN İNSAN HÜQUQLARI SİSTEMİ

İnsan hüquqları sahəsində BMT ilə əməkdaşlığa görə fiziki şəxslərə və ya qruplara qarşı hədə-qorxu və repressiya halları xüsusilə utancvericidir. Fiziki şəxslərin və ya qrupların BMT-nin insan hüquqları sisteminin işində iştirak etmək zərurəti və hüququ hamı tərəfindən tanınsa da, bu cür aktlar barədə məlumatlar daxil olmaqla davam edir.

BMT-nin mexanizmləri və ya rəsmi şəxsləri ilə qarşılıqlı münasibətlər (məsələn, bəyanatlar, çıxışlar, görüşlər və s. formasında) səbəbindən, ayrı-ayrı VCS-lər yüksək səviyyəli rəhbərlər tərəfindən edilən ictimai bəyanatlar da daxil olmaqla, hökumət rəsmiləri tərəfindən təhdid və təqiblər kimi hədə-qorxu və repressiyalara məruz qala bilərlər; onlara görüşlərdə iştirak etmək məqsədilə səfər qadağaları ilə üzləşə bilərlər; VCS-lər öz fəaliyyətlərində fasiləsiz nəzarət və ya məhdudiyyətlərə məruz qala bilərlər.

Sosial şəbəkələrdə, qəzet və ya televiziyada böhtan kampaniyalarının aparılması heç də nadir hal deyil. Təhdidlər telefon zəngləri, mətn mesajları və ya birbaşa əlaqələr vasitəsilə edilə bilər. VCS-lər həbs oluna, döyülmə, işgəncə və ya hətta qətllərə məruz qala bilərlər.

İnsan Hüquqları Şurası 24/24 və 12/2 saylı qətnamələr də daxil olmaqla, o cümlədən, bu məsələ ilə bağlı bir neçə qətnamə qəbul etmişdir. BMT Baş Katibi və İnsan hüquqları üzrə Ali Komissar dəfələrlə bəyan etmişlər ki, bu cür repressiyalar qəbuledilməzdir və BMT bu cür aktlara qarşı daha vahid və əlaqələndirilmiş tərzdə cavab verməlidir. Digər hüquq müdafiə mexanizmləri də qətiyyətlə və açıq şəkildə repressiyalara qarşı çıxış edirlər.

## İnsan hüquqlarına dair beynəlxalq müqavilələrin repressiyalarla bağlı müddəaları

**İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta Fakültativ Protokol – Maddə 13**

İştirakçı dövlət öz yurisdiksiyasındakı şəxslərin hazırkı Protokola uyğun olaraq Komitəyə müraciət nəticəsində hər hansı formada təzyiqlərə və ya hədə-qorxuya məruz qalmamasını təmin etmək məqsədilə bütün lazımi tədbirləri görməlidir.

**Məlumatlandırma prosedurları ilə bağlı Uşaq hüquqları haqqında Konvensiyaya Fakültativ Protokol – Maddə 4**

İştirakçı dövlət öz yurisdiksiyasındakı şəxslərin hazırkı Protokola uyğun olaraq Komitəyə müraciət nəticəsində hər hansı formada insan hüquqlarının pozulması, qəddar rəftar və ya hədə-qorxuya məruz qalmamasını təmin etmək məqsədilə bütün lazımi tədbirləri görməlidir.





**Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya Fakültativ Protokol– Maddə 11**

İştirakçı dövlət öz yurisdiksiyasındakı şəxslərin hazırkı Protokola uyğun olaraq Komitəyə müraciət nəticəsində hər hansı formada pis rəftara və ya hədə-qorxuya məruz qalmamasını təmin etmək məqsədilə bütün lazımi tədbirləri görməlidir.

**Avstriyada** 1982-ci ildə qəbul edilmiş Ombudsman Şurası haqqında Qanunun 18-ci Maddəsində deyilir: "İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəyə, Ombudsman Şurasına və ya onlar tərəfindən yaradılan komissiyalara məlumat verdiklərinə görə heç bir şəxsə cəza verilməməli və ya başqa şəkildə qeyri-əlverişli vəziyyətə salınmamalıdır."

**Monteneqroda** 2007-ci ildə qəbul edilmiş Konstitusiyanın 56-cı Maddəsində deyilir: "Hər bir şəxs Konstitusiya ilə təmin edilmiş hüquq və azadlıqlarının qorunması üçün beynəlxalq təşkilatlara müraciət etmək hüququna malikdir."

Hüquqi və inzibati məhdudiyyətlər, təqib, hədə-qorxu və repressiyalarla birlikdə vətəndaş cəmiyyətinin hökumətlərlə tərəfdaş qismində oynamalı olduğu konstruktiv və qarşılıqlı tamamlayıcı rolunu zəiflədir. Onlar vətəndaş cəmiyyətinin fəaliyyətinin qarşısını almaq, bu cür fəaliyyətləri azaltmaq, gözdən salmaq, dayandırmaq və ya geri salmaq məqsədinə xidmət edirlər. Bu mühitin təşviq və mühafizəsindən və təhlükəsiz və əlverişli şərait təminatından imtina etmək dövlətlərin insan hüquqları sahəsində beynəlxalq sazişlər çərçivəsində götürmüş olduqları öhdəliklərə ziddir.

VCS-lərin qoruması üçün əsas məsuliyyət dövlətlərin üzərinə düşsə də, vətəndaş cəmiyyətinin fəaliyyət sahəsi və ya VCS-lərin özləri insan hüquqlarının inkişafı üzrə işlərində riskə məruz qaldıqda, beynəlxalq ictimaiyyət ümumi maraqdan çıxış etməli və onlara dəstək vermək və onları qorumaqla bağlı birgə məsuliyyət daşımalıdırlar.

## 5. Mən nə edə bilərəm? BMT-yə müraciət

İnsan hüquqlarına dair beynəlxalq Qanun VCS-lərin dəstək və məsləhət üçün müraciət edə biləcəkləri unikal beynəlxalq platforma təmin edir. Bu platformaya BMT-nin insan hüquqlari üzrə Ali Komissarlığı (OHCHR), insan hüquqları üzrə müqavilə orqanları və İnsan hüquqları Şurası və onun mexanizmləri (xüsusi prosedurlarla bağlı mandatlar, universal dövri icmal və s.) daxildir.

*"İnsan hüquqları sahəsində beynəlxalq standartlar vətəndaş təşkilatlarına beynəlxalq səviyyədə razılaşdırılmış normaların həyata keçirilməsi üçün normaların müdafiəsinə qalxmaq imkan yaradan qlobal çərçivələr təmin edir. Bu standartlar təkcə vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətini qanuniləşdirmir, həm də hökumətlərin insan hüquqları üzrə öhdəliklərinin yerinə yetirilməsinin müstəqil monitorinqi və hesabatlılığı üçün səmərəli platforma təmin edir. Beynəlxalq hüquq müdafiə mexanizmləri vətəndaş cəmiyyəti üçün daha əlverişli şərait yaratmaq uğrunda çıxış etmək imkanı verən ən mühüm platforma kimi yaranmışdır. Xüsusi ağır məhdudiyyətlər şəraitində, BMT-nin hüquq müdafiə orqanları vətəndaş cəmiyyətinin milli qruplarına məlumatlılığı artırmaq və həssas məsələlərlə bağlı dialoqu artırmaq imkanı yaratmaqla onlar üçün ən mühüm ünsiyyət kanalı qismində çıxış edirlər."*

Doktor Denni Sriskandaracah,
Vətəndaş iştirakı üzrə beynəlxalq Alyansın (CIVICUS)
baş katibi, oktyabr, 2014-cü il



*Mövcud imkanlardan istifadə.* Vətəndaş cəmiyyəti subyektlərinə beynəlxalq konfrans və görüşlərdə və ya ekspertlərin səfərlərində iştirak imkanlarından yararlanmaq təklif olunur. İmkanlar vətəndaş cəmiyyətinin problemləri barədə məlumatlılığı artırmaq məqsədilə çıxışlar, brifinqlərin təşkili vasitəsilə, eləcə də tövsiyələri və uğurlu strategiyaları paylaşmaqla gerçəkləşdirilə bilər.

Vətəndaş cəmiyyətinin fəaliyyət məsələləri üzrə BMT-nin insan hüquqları mexanizmləri ilə iş VCS-lərə vətəndaş cəmiyyətinin fəaliyyət məkanının müdafiəsi işlərində əldə olunan nəticələrdən (məsələn, hüquqi, inzibati və digər tədbirlərlə bağlı hökumətlərə təqdim olunan beynəlxalq xülasələrdən və tövsiyələrdən) faydalanmaq və yerli səviyyədə vətəndaş cəmiyyəti subyektlərinin hüquq və imkanlarını genişləndirmək imkanı verir.

| | | | |
|---|---|---|---|
| Məlumatların verilməsi<br><br>İştirak | BMT-nin insan hüquqları sistemi | Beynəlxalq<br>• xülasələr<br>• nəticələr<br>• məruzələr<br>• qətnamələr<br>• bəyanatlar<br>• çağırışlar | Yerli fəaliyyətlərin dəstəklənmə və formalaşma vasitələri |

*Mövcud imkanlardan istifadə.* Vətəndaş cəmiyyəti subyektlərinə beynəlxalq konfrans və görüşlərdə və ya ekspertlərin səfərlərində iştirak imkanlarından yararlanmaq təklif olunur. İmkanlar vətəndaş cəmiyyətinin problemləri barədə məlumatlılığı artırmaq məqsədilə çıxışlar, brifinqlərin təşkili vasitəsilə, eləcə də tövsiyələri və uğurlu strategiyaları paylaşmaqla gerçəkləşdirilə bilər.

Vətəndaş cəmiyyətinin fəaliyyət məsələləri üzrə BMT-nin insan hüquqları mexanizmləri ilə iş VCS-lərə vətəndaş cəmiyyətinin fəaliyyət məkanının müdafiəsi işlərində əldə olunan nəticələrdən (məsələn, hüquqi, inzibati və digər tədbirlərlə bağlı hökumətlərə təqdim olunan beynəlxalq xülasələrdən və tövsiyələrdən) faydalanmaq və yerli səviyyədə vətəndaş cəmiyyəti subyektlərinin hüquq və imkanlarını genişləndirmək imkanı verir.

[4] Bu mexanizmlərin əsas xarakteristikaları ilə tanış olmayan oxucular üçün, OHCHR-in "Vətəndaş cəmiyyəti üçün sorğu kitabı – *BMT-nin insan hüquqları Proqramı üzrə necə işləməli*"" adı sənədi ilə tanış olmaq təklif olunur. Əlavə göstəriş və tövsiyələrlə *"BMT-nin insan hüquqları üzrə tövsiyələri əsasında növbəti tədbirləri necə həyata keçirməli."* adlı təlimat da daxil olmaqla, *"Vətəndaş cəmiyyəti üçün praktiki təlimatlar"* seriyasında tanış olmaq mümkündür.

# VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FƏALİYYƏTİ ÜÇÜN MƏKAN VƏ BMT-NİN İNSAN HÜQUQLARI SİSTEMİ

BMT-nin hüquq müdafiə mandatları və mexanizmlərinin fəaliyyət nəticələrinə dair nümunələr:

- Müqavilə orqanlarının yekun qeydləri, eləcə də ayrı-ayrı hallar üzrə fikir və tövsiyələri;
- Ölkələrə səfərlərin nəticələrinə həsr olunan hesabatlarda yer almış qiymətləndirmələr, tövsiyələr və nəticələr, İnsan Hüquqları Şurasının xüsusi prosedurları (müstəqil ekspertlər tərəfindən) əsasında ayrı-ayrı hallarla bağlı tematik hesabatlar və məlumatlar;
- Universal dövri icmal tövsiyələri;
- İnsan Hüquqları Şurasının və Baş Assambleyasının qətnamə və qərarları;
- İnsan hüquqları pozuntularının İnsan Hüquqları Şurası tərəfindən müəyyən edilmiş sorğu, faktaraşdırıcı missiya və digər xüsusi mexanizmlər vasitəsilə araşdırılması ilə məşğul olan komissiyaların hesabatları;
- BMT Baş Katibinin bəyanatları;
- Hesabatları, hesabatlar və BMT-nin Ali Komissarlığının tədqiqatlar
- BMT-nin insan hüquqları üzrə Ali Komissarının bəyanatları, məruzələri və araşdırmaları (məsələn, yerlərdəki hökumətlərin fəaliyyəti barədə hesabatlar; İnsan Hüquqları Şurasının və ya BMT-nin Baş Assambleyasının göstərişi ilə tematik məsələlər və ölkələrdəki vəziyyətlərlə bağlı aparılmış araşdırmalar və hesabatlar);
- BMT ilə əməkdaşlıq edən şəxslərə və ya qruplara qarşı hədə-qorxu və ya repressiya halları barədə Baş Katibin illik hesabatları; və
- Baş Katibin, İnsan Hüquqları üzrə Ali Komissarın və ya insan hüquqları üzrə ekspertlərin ictimai çıxışlarında ölkələrə etdikləri müraciətlər.



Bu nəticələr və tövsiyələr həm də yerlərdəki fəaliyyətlərə dəstək vermək, həmçinin müdafiəni təmin etmək baxımından effektiv təbliğat və təlimat vasitəsi kimi çıxış edə bilər. Məsələn, VCS-lər aşağıdakıları həyata keçirə bilərlər:

- BMT-nin insan hüquqları sistemindən gələn tövsiyələrin həyata keçirilməsində mərkəzi və yerli hökumətlə birgə işləmək;
- Beynəlxalq hesabatlar və ölkədəki hüquq müdafiə təcrübələri ilə bağlı gözləntilər haqqında yerli icmaları maarifləndirmək;
- Mərkəzi və yerli səviyyələrdə hakimiyyət orqanları tərəfindən həyata keçirilən tədbirlərin monitorinq və qiymətləndirməsini aparmaq;
- Qabaqcıl təcrübələr əsasında nüfuzlu, obyektiv xülasələrdən, səmərəli strategiyalardan və həll yollarından istifadə etməklə mövcud təbliğat materiallarını təkmilləşdirmək;
- Müxtəlif vətəndaş cəmiyyəti təşkilatları, eləcə də geniş ictimaiyyət arasında ictimai rəy formalaşdırmaq;
- Tərəfdaşlıq münasibətləri yaratmaq;
- Dövlət rəsmiləri ilə dialoqun keyfiyyətini yaxşılaşdırmaq;
- Siyasət formalaşdırma proseslərinə töhfə vermək;
- Məhkəmə iddiaları/mübahisələri qaldırmaq;
- Hüquq müdafiə mexanizmlərinin gələcək prosedurlarına töhfə vermək;
- BMT-nin hüquq mühafizə mexanizmlərinə fərdi qaydada şikayət etmək istəyən şəxslər üçün qiymətləndirmə aparmaq və texniki məsləhət təmin etmək.

BMT-nin digər ölkələrlə bağlı çıxardığı nəticələr də digər ölkələrdəki oxşar təcrübə ilə bağlı strategiyalar haqqında zəngin məlumat mənbəyi kimi çıxış edir.

## BMT-nin hüquq müdafiə mexanizmləri necə işləyir

Ümumiyyətlə, BMT-nin hüquq müdafiə mexanizmləri insan hüquqları sahəsindəki problemləri həll etmək üçün bənzər prosedura riayət edirlər. Məlumatlar bir çox müxtəlif mənbələrdən, o cümlədən vətəndaş cəmiyyəti subyektlərindən toplanır və ya əldə olunur. Həmin məlumatlar uyğunluq, etibarlılıq və dəqiqlik baxımından təhlil olunur və təkrar yoxlanılır. Mexanizm məlumatın məzmununu dəqiqləşdirmək üçün dövlətlə yazılı formada və ya şəxsən dialoqa start verir. Mexanizm problemin həll yolları ilə bağlı dövlətə tövsiyə verə və həmin tövsiyələrin həyata keçirilməsini dəstəkləyə bilər. Daha sonra, tövsiyələrin yerinə yetirilmə gedişatına qiymətləndirmək üçün əlavə məlumat toplanır.






2011-ci ilin aprelində İspaniyanın əlil nümayəndələr Komitəsinin (CERMI) üzvləri əlilliyi olan şəxslərin hüquqları üzrə Komitənin (CRPD) beşinci iclasında və problemləri siyahısının hazırlanmasında iştirak etmişdilər. Onlar bununla bağlı hesabat təqdim etmiş, hesabat barədə Komitəni məlumatlandırmış və daha sonra isə İspaniyaya ünvanlanan tövsiyələr üzrə növbəti tədbirlərdə iştirak etmişdilər. Xüsusilə, CERMI əlillik səbəbindən səs vermək hüququndan məhrum edilmiş şəxslərin səsvermədə iştirak hüququnun bərpası üçün geniş kampaniyaya başlamışdılar (həmin vaxt bu cür hüquqdan təxminən 80000 nəfər məhrum edilmişdi). Komitə “bütün əlillərə əlillik dərəcəsindən, hüquqi statusundan və ya yaşayış yerindən asılı olmayaraq səsvermə hüququ vermək üçün bütün müvafiq qanunvericilik aktlarını təkrar nəzərdən keçirməyi” tövsiyə etmişdi (CRPD/C/ESP/CO/1, 48-ci bənd). CERMI səsvermə hüququnu tələb etmək və həyata keçirməklə bağlı praktiki addımların geniş yer aldığı “Sizin səsvermə hüququnuz vardır və heç kim sizdən bu hüququ ala bilməz” adı altında təlimat sənədinin nəşr edilməsi də daxil olmaqla, qanunvericilik aktlarına düzəlişlərin edilməsi ilə bağlı bir neçə təşəbbüs irəli sürmüşdü. CERMI-in təbliğat işi nəticəsində, Ali Məhkəmənin prokuroru regional prokurora əlilliyi olan şəxslərin səsvermə hüququnu qorumağı təkidlə tövsiyə etmişdi. CERMI də hökumət və Konqreslə izahat işi aparmaqla Əlillərin hüquqlarına dair Konvensiyanın (CRPD) yekun nəticələrinə uyğun qanunvericiliyə düzəlişlərin edilməsinə nail olmuşdu. Təklif olunan düzəlişlər Konqres və hökumətin müxtəlif üzvlərinə təqdim edilmişdi.

VCS-lər yerli səviyyədə əhalini səfərbər etmək və dövlət işçilərini vətəndaş cəmiyyətinin fəaliyyət imkanlarını təşviq və müdafiə etməyə stimullaşdırmaq məqsədilə, milli strategiyaların dəstəklənməsində beynəlxalq ictimaiyyətin səsindən istifadə edə bilərlər.

## Mən nə edə bilərəm?

- Ölkənizdə insan hüquqlarının vəziyyətinə dair BMT-nin sənədləri barədə məlumat əldə edə və onu paylaşa bilərsiniz:

http://www.ohchr.org/EN/Countries/Pages/HumanRightsintheWorld. aspx

- Ən yaxın OHCHR ofisi və ya BMT-nin Ölkədəki Komandası ilə əlaqə saxlaya və vətəndaş cəmiyyətinin fəaliyyət imkanları barədə məlumatlarla birlikdə öz hesabatınızı OHCHR-in Vətəndaş Cəmiyyəti Bölməsinə göndərə bilərsiniz: civilsociety@ohchr.org

- Ən yaxın OHCHR ofisi və ya BMT-nin Ölkədəki Komandası ilə əlaqə saxlaya və vətəndaş cəmiyyətinin fəaliyyət imkanları barədə məlumatlarla birlikdə öz hesabatınızı OHCHR-in Vətəndaş Cəmiyyəti Bölməsinə göndərə bilərsiniz: civilsociety@ohchr.org

http://www.ohchr.org/Documents/Publications/NgoHandbook/ngohandbook4.pdf

- Müvafiq hallarda müvəqqəti tədbirlər və ya təcili fəaliyyətlə bağlı müraciətlər də daxil olmaqla, insan hüquqları müqaviləsi çərçivəsində şikayət verə bilərsiniz:

http://www.ohchr.org/Documents/Publications/FactSheet7Rev.2.pdf

- İnsan Hüquqları Şurasının xüsusi prosedurları ekspertlərinə şikayət verə bilərsiniz:

http://www.ohchr.org/EN/HRBodies/SP/Pages/Communications.aspx

- İnsan Hüquqları Şurasının şikayətlərə baxılma prosedurlarına şikayət verə bilərsiniz:

http://www.ohchr.org/EN/HRBodies/HRC/ComplaintProcedure/Pages/HRCComplaintProcedureIndex.aspx

- İnsan Hüquqları Şurasının iclaslarında vətəndaş cəmiyyəti məkanı ilə bağlı məlumat və təcrübələrinizi paylaşa bilərsiniz:

http://www.ohchr.org/Documents/HRBodies/HRCouncil/PracticalVəsaitNGO_en.pdf

- İnsan Hüquqları Şurasının ölkəniz üzrə Universal dövri icmalında vətəndaş cəmiyyəti məkanı ilə bağlı məlumat və təcrübələrinizi paylaşa bilərsiniz:

http://www.ohchr.org/EN/HRBodies/UPR/Documents/PracticalVəsaitCivilSociety.pdf

- BMT Baş katibinin repressiyalara dair illik hesabatına töhfə kimi BMT, onun nümayəndələri və insan hüquqları üzrə mexanizmləri ilə əməkdaşlıq edən istənilən şəxslərə və ya qruplara qarşı iddia edilən təqib, hədə-qorxu və ya repressiya halları barədə ətraflı və təsdiq olunmuş məlumatları təqdim edə bilərsiniz: reprisals@ohchr.org.
- BMT-nin Baş katibi və ya İnsan Hüquqları üzrə Ali Komissarının tematik məruzələri üçün məlumat təqdim edə bilərsiniz.
- Xüsusi prosedurlar üzrə tematik və ölkə hesabatları üçün məlumat təqdim etmək üsullarını aydınlaşdıra bilərsiniz:

http://www.ohchr.org/Documents/Publications/NgoHandbook/ngohandbook6.pdf





- BMT-nin insan hüquqları mexanizmlərinin fəaliyyəti barədə məlumat əldə etmək üçün belə Vətəndaş Cəmiyyəti Bölməsinin elektron məktublarına abunə ola bilərsiniz:

http://www.ohchr.org/EN/AboutUs/Pages/CivilSociety.aspx

## Real gözləntilərin təmin olunması

Dövlətlər ifadə, birləşmək, toplaşmaq azadlıqlarını və ictimai işlərdə iştirak etmək hüququnu təşviq etmək qorumaq üçün məsuliyyət daşıyır. VCS-lər BMT-nin insan hüquqları sistemi və digər subyektlərlə birlikdə bu öhdəliklərin yerinə yetirilməsində dövlətlərə kömək edə bilər.

VCS-lərə qarşı təqib, hədə-qorxu və repressiyalar kimi bu cür fəaliyyətlərə təcili diqqət yetirilməli olduğu halda, vətəndaş cəmiyyətinin fəaliyyəti üçün normativ və qanunvericilik xarakterli maneələri aradan qaldırmaq prosesləri dəyişikliklərin həyata keçirilməsi üçün adətən uzun vaxt tələb edir. Bu zaman, nəzərdən keçirilən hər bir hala uyğun BMT mandatı və ya mexanizmindən istifadə etmək zəruridir.

Bu və ya digər vəziyyətdə müsbət nəticələrə təsir imkanı kollektiv səylərə əsaslanır və adətən çoxsaylı subyektlərin (yerli ictimaiyyətin, digər vətəndaş cəmiyyəti subyektlərinin (yerli və beynəlxalq), milli insan hüquqları təsisatlarının, KİV-lərin, dövlət rəsmilərinin, siyasətçilərin, digər ölkələrin, eləcə də regional və beynəlxalq ictimaiyyətlərin) səfərbər edilməsi ilə şərtlənir.

VCS-lərin BMT-nin İnsan Hüquqları sistemi ilə qarşılıqlı əlaqəsi dəyişiklik çağırışlarını artırma və gücləndirmək üsuludur. Bu cür qarşılıqlı təsir vətəndaş cəmiyyətinin fəaliyyət məkanının təşviq və müdafiəsi üçün təbliğat strategiyasının ümumi effektiv elementlərindən biridir.




## 6. Sənədli resurslar

BMT resursları

BMT-nin insan hüquqları Proqramı ilə necə işləməli: Vətəndaş Cəmiyyəti üçün sorğu kitabı –

http://www.ohchr.org/EN/AboutUs/CivilSociety/Documents/Handbook_en.pdf

BMT-nin insan hüquqları ilə bağlı tövsiyələri üzrə sonrakı tədbirləri necə həyata keçirməli: Vətəndaş cəmiyyəti üçün praktiki vəsait –

http://www.ohchr.org/Documents/AboutUs/CivilSociety/HowtoFollowUNHRRecommendations.pdf





OHCHR-in İdarəetmə Planı (2014–2017-ci illər), Demokratik məkanın genişləndirilməsi üzrə tematik strategiya (səh. 72–83.) –

http://www2.ohchr.org/english/OHCHRreport2014_2017/OMP_Web_version/media/pdf/10_Democratic_space.pdf

Hüquq müdafiəçiləri haqqında bəyannamə –

http://www.ohchr.org/EN/Issues/SRHRDefenders/Pages/Declaration.aspx

Vətəndaş cəmiyyətinin fəaliyyət məkanlarının təşviq və müdafiəsinin zəruriliyi barədə İnsan Hüquqları Şurasının müzakirə qrupu çərçivəsində aparılmış müzakirələrin nəticələrinə dair qısa məruzə, A/HRC/27/33

İnsan Hüquqları Komitəsi, 34 Saylı ümumi Şərh, Maddə 19: fikir və ifadə azadlığı, CCPR/C/QS/34.

Birləşmək azadlığı ilə bağlı qanunvericiliyin qiymətləndirilməsi, BMT-nin hüquq müdafiəçilərinin vəziyyəti üzrə Xüsusi Məruzəçisinin məruzəsi, A/64/226.

Qadın hüquq müdafiəçilərinin problemlərinin araşdırılması, BMT-nin hüquq müdafiəçilərinin vəziyyəti üzrə Xüsusi Məruzəçisinin məruzəsi, A/HRC/16/44.

Hüquq müdafiəçiləri üçün təhlükəsiz və əlverişli şəraitin elementləri, BMT-nin hüquq müdafiəçilərinin vəziyyəti üzrə Xüsusi Məruzəçisinin məruzəsi, A/HRC/25/55.

Birliklərin maliyyə resursları əldə etmək imkanları hüquqları, BMT-nin dinc toplaşmaq azadlığı üzrə Xüsusi Məruzəçisinin məruzəsi, A/HRC/23/39.

İnsan hüquqları sahəsində BMT, onun nümayəndələri və mexanizmləri ilə əməkdaşlıq haqqında Baş Katibin məruzələri (A/HRC/27/38, A/HRC/24/29, A/HRC/21/18, A/HRC/18/19, A/HRC/14/19).

Fəsil 16, Vətəndaş Cəmiyyəti ilə qarşılıqlı münasibət və tərəfdaşlıq, İnsan hüquqlarının monitorinqi üzrə OHCHR Təlimatı –

http://www.ohchr.org/Documents/Publications/Chapter16–MHRM.pdf

Seçilmiş vətəndaş cəmiyyəti mənbələri və digər mənbələr

Milli qanunvericilik üçün prinsip və elementlərin yoxlama siyahısı (Qeyri-kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz) –

http://www.icnl.org/research/library/files/Transnational/checklisten.pdf

Qərarların qəbulu proseslərində vətəndaş cəmiyyətinin iştirak üsulları ilə bağlı tövsiyə olunan təcrübə Məcəlləsi, Avropa Şurası

http://www.coe.int/t/ngo/code_good_prac_en.asp

Repressiyalara dair təlimat kitabı (İnsan hüquqları üzrə beynəlxalq Xidmət) –

http://www.ishr.ch/news/reprisals–handbook

Əlverişli şərait indeksi, 2013 (CIVICUS) –

http://www.civicus.org/downloads/2013EEI%20REPORT.pdf

## 7. Bizimlə əlaqə saxlayın:

OHCHR Vətəndaş Cəmiyyəti Bölməsi ilə əlaqə saxlamaq üçün:

civilsociety@ohchr.org

Telefon: +41 (0) 22 917 9656

Vətəndaş cəmiyyəti məsələləri üzrə elektron məktub sistemi insan hüquqları sahəsində bütün mandatlar və mexanizmlərlə bağlı yenilənmiş məlumatları, eləcə də fondlar, qrantlar və təqaüdlərin alınması üçün son ərizə təqdimetmə müddətləri barədə məlumatları əldə etmək imkanı verir. Abunə olmaq üçün, vətəndaş cəmiyyəti məsələləri üzrə sayta daxil olun:

http://www.ohchr.org/EN/AboutUs/Pages/CivilSociety.aspx



Made of paper awarded the European Union Eco-label, reg.nr FI/11/1, supplied by UPM.

Vətəndaş Cəmiyyəti üçün praktiki təlimat
VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FƏALİYYƏTİ ÜÇÜN MƏKAN VƏ BMT-NİN İNSAN HÜQUQLARI SİSTEMİ

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı
Palais des Nations
CH 1211 Geneva 10 – Switzerland
Telefon : +41 (0)22 917 90 00
Faks : +41 (0) 22 917 90 08
www.ohchr.org

UNITED NATIONS

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF HIGH COMMISSIONER